**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin

F-354 nömrəli 30.07 2020-ci il

tarixli qərarı ilə təsdiq edilmişdir.

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

# BAKALAVRİAT SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

İxtisasın (proqramın) şifri vəadı: 050508-Kimya

BAKI – 2020

## BAKALAVRİAT SƏVİYYƏSİNİN "KİMYA" İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

### 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin 050508-Kimya ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisasüzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübəkeçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr(əsas (baza) tibb) hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

### 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalarayiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;

- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalara yiyələnməlidir:

- Fizikanın kimyada rolunu müəyyənləşdirmək, mexanikanın əsas prosesləri və qanunauyğunluqlarının mahiyyətini izah etmək, cisimlərin molekulyar quruluşu əsasında onların fiziki xassələrini müəyyən etmək, elektromaqnetizm haqqında əsas anlayışları bilməklə müxtəlif şüaların xassələri haqqında biliklərə əsaslanaraq hadisələri şərh etmək və kvant mexanikanın qanunauyğunluqlarını izah etməyi bacarığına;
- Ali riyaziyyatın ixtisas üzrə zəruri olan fundamental bölmələrinə dair biliklərə əsaslanaraq tədqiqat nəticəsində əldə edilmiş məlumatların riyazi və statistik işlənilməsi bacarığına;
- Materiyanın hərəkət formaları, atom-molekul təlimi,atom orbitalları, kvant ədədləri, elementlərin dövri sistemi və dövri qanun, kimyəvi əlaqə,koordinasion birləşmələr, elektroliz, hidroliz haqqında nəzəri və praktiki biliklərə yiyələnmək bacarığına;
- Metallar və qeyri-metalların dövri sistemdə yerini bilməklәII A,II B qrup elemetləri, III A və III B qrup elementləri, IV A, IV B qrup elementləri, VA və VB qrup elementləri, IV A, IV B qrup elementləri, VA və VB qrup elementləri, VI A, VI B qrup elementləri , VII A və VII B qrup elementləri və VIII A və VIII B qrup elementlərininümumi xarakteristikasını müəyyən etmək; Laboratoriya şəraitində qeyri-üzvi reaksiyaları həyata keçirmək vərdişlərinə yiyələnmək bacarığına;
- Analitik kimyanın nəzəri əsaslarına əsasən təbiət elmləri, texnika və xalq təsərrüfatında analitik kimyanın rolu müəyyən etmək, kimyəvi, fiziki-kimyəvi və fiziki analiz metodlarının praktiki imkanlarına əsasən mürəkkəb tərkibli təbiət və sənaye obyektlərində makro- və mikrokomponentlərin vəsfi və miqdari analizinin praktiki təyini vərdişlərinə yiyələnmək bacarığına;
- Üzvi kimyanın predmeti, karbohidrogenlər (alkanlar, tsikloalkanlar, alkenlər, alkinlər, arenlər), üzvi birləşmələrdə optiki izomerlik,karbohidrogenlərin halogenli törəmələri, Mg və Li üzvi birləşmələr, hidroksil törəməli karbohidrogenlər, sadə efirlər, karbonil birləşmələr, karbon turşuları onların törəmələri, aitrobirləşmələr, aminlər, azo-birləşmələr, heterotsikilik və hetero-funksional birləşməlr haqqında nəzəri biliklərə və eyni zamanda laboratoriya şəraitindəüzvi reaksiyaların sintezini həyata keçirmək bacarığına;
- Yüksəkmolekullu birləşmələrin əsas növlərinin sintezi, quruluş və xassələri haqqında nəzəri biliklərə, polimerlərin əsas fiziki-kimyəvi sabitlərini təyin etmə vərdişlərinə, polimerlərin həll olma qabiliyyətinin qiymətləndirilməsi üçün vərdişlərəvə laboratoriya şəraitində polimerlərin sintezini həyata keçirmək qabiliyyəyinə yiyələnmə bacarığına;
- Kristalllik maddələr, qəfəs və quruluş analayışları, simmetiriya nəzəriyyəsi, molekulların, kristalların və quruluşun simmetiriyası haqqında nəzəri biliklər əldə etmə və kristallokimyanın eksterimental üsulları-rentgen quruluş təhlili bacarığına;

- Kimyanın fundamental bölmələrinin nəzəri əsaslarının mənimsənilməsi; alınmış nəticələrin müzakirəsində müasir məlumat bazalarının cəlb edilməsilə kimyanın ümumi qanunlarının tətbiq olunması,kimyəvi birləşmələrin quruluş və xassələrinin tədqiqində istifadə edilən fiziki metodların əsasları, təsnifatının əsas prinsipləri, onların ümumi xarakteristikaları, həssaslığı, imkanları, məhdidiyyəti və s. ilə əlaqədar nəzəri və praktiki biliklərin mənimsənilməsi bacarığına;
- Maddələrin fiziki və kimyəvi xassələrinin onların quruluşu ilə əlaqəsininin, alınmış eksperimental nəticələrin müvafiq metodun xüsusiyyətlərini nəzərə almaqla savadlı səviyyədə qiymətləndirilməsi və şərh edilməsi; konkret məsələnin həlli üçün fiziki tədqiqat metodunun və ya metodlar qrupunun düzgün seçilməsi,üzvi, qeyri-üzvi və kompleks birləşmələrin tərkibinin, quruluşunun və xassələrinin, onlar arasındakı qarşılıqlı əlaqənin tədqiqatının nəticələrini ümumiləşdirmək; analitik və qrafiki asılılıqların təhlili metodikalarına; müxtəlif fiziki tədqiqat metodlarının tətbiqi ilə əlaqədar nümunələrin hazırlanma metodikalarına yiyələnmək bacarığına;
- Texnologi proseslərin material və istilik balanslarının hesablanması haqqında nəzəri biliyə malik olmaq, texnoloji proseslərin əsas göstəricilərinin hesablanmasını eləcə dəreaktor və digər aparatları sxematik təsvir etmək, respublikamızda və dünyada mövcud olan əsas xammal-enerji mənbələrini araşdırmaq,respublikamızda və dünyada mövcud olan əsas texnolji prosesləri öyrənmək bacarığına;
- Neftin əsas fiziki-kimyəvi xassələrini müəyyən etmək üçün laboratoriya sınaqlarının aparılması, fiziki (fiziki-kimyəvi) analiz metodlarının köməyilə neft və qazın tərkibini öyrənilməsi, neft və qaz komponentlərinin fiziki və kimyəvi üsullarla ayrılması, yanacaqlar və yağlar haqqında mükəmməl biliklər əldə edilməsi, neft tullantılarının emalı ilə ekoloji problemlərin həlli yolların təyin etmək bacarığına;
- Fiziki kimyanın, o cümlədən termodinamika və kimyəvi termodinamikanın əsasları haqqında anlayışa, müxtəlif temperaturlarda kimyəvi reaksiyaların istilik effektini və tarazlıq sabitini hesablama; məhlullarda və fazalar sərhəddində gedən prosesləri, həmçinin qarışıqların və real məhlulların termodinamikasını izah etmə; distillənin və azeotrop məhlulların ayrılma prinsiplərini şərh etmə; çoxkomponentli sistemlərdə kimyəvi və faza tarazlıqlarının termodinamik metodlarını təsvir etmə; ikikomponentli sistemlərdə tarazlıqda olan fazaların tərkibini hesablama; birkomponentli və binar sistemlərdə fazaların davamlılıq sahələrinin sərhədlərini təyin etmə; formal kinetikanın və mürəkkəb, zəncirvari heterogen və fotokimyəvi reaksiyaların kinetikikasını və kinetik təcrübələrin nəticələrinə əsasən müxtəlif tərtibli reaksiyaların sürət sabitlərinin təyini metodlarından istifadə etmə; Homogen, heterogen və fermentativ katalizin əsas nəzəriyyələrini eləcə də elektrokimyanın əsas prinsiplərini mənimsəmə bacarığına;
- Səth hadisələrinin əsas qanunlarına əsasən nəzəri biliklər əsasında təcrübi məlumatları şərh etmə, müxtəlif növ kolloid sistemləri təsvir etmə,elektrokinetik effektlərin yaranmasına əsasən uyğun xassələrin hesabalamasını aparma vəəldə edilmiş bilikləri istehsalın texnoloji proseslərinin həllində tətbiq etmə bacarığına;
- İnformatikanın əsas nəzəri və praktik aspektləri ilə tanış olmalı, kompüter şəbəkələrinin əsas anlayışları, onların təyinatı və təsnifatı, lokal və qlobal şəbəkələrin aparat və proqram

təminatı haqqında biliklərə malik olmaq, kompüter şəbəkələrində işləmək, internet şəbəkəsinin xidmətləri və protokolları, domen adları, baza TCP/İP protokolu haqqında biliyə malik olmaq, internetdə axtarış sistemlərində və sosial şəbəkələrdə işləmək bacarığına;

- Mülki müdafiənin əsasları, qüvvə və vasitələrini, fövqəladə hallar və onların xarakteristikalarını, fövqəladə hallarda əhalinin mühafizəsini, əhalinin mülki müdafiə üzrə maarifləndirilməsini, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi, fövqəladə hallarda sənaye obyektlərinin işinin dayanıqlığının əsaslarını və qiymətləndirilməsini, həmçinin fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarının təşkilini və həyata keçirilməsi bacarığına;
- Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını bilməlidir, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq etməyi bacarmalıdır. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolunu sistemli təhlil etməyi bacarmalıdır. Azərbaycan dövlətçiyi qədim və orta əsrlər dövründə; XV-XVIII əsrlərdə Azərbaycan xalqı tərəfindən Şərqdə böyük imperiyaların yaradılması; XIX əsrin ilk onilliklərində Azərbaycan dövlətçiliyinin itirilməsi və onun siyasi, iqtisadi, sosial nəticələri; Azərbaycanda milli dövlətçilik uğrunda mübarizə, Azərbaycan xalq cumhuriyyətinin yaradılması-birinci respublika dövrü; ikinci Respublika, Azərbaycan dövlətçiliyi Sovet imperiyası dövründə; XX əsrin 80-ci illərin ikinci yarısında müstəqillik uğrunda mübarizənin başlanması və müstəqil dövlətçiliyin bərpası; Müstəqil Azərbaycan Respublikasının daxili siyasəti: müstəqil dövlətçiliyin sosial-iqtisadi,hüquqi bazasının yaradılması və inkişafı; Müstəqil dövlətçiliyin qorunması üçün təhlükəsiz beynəlxalq şəraitin yaradılması; Dövlətimizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizə; Azərbaycanın Qafqazda lider dövlətə çevrilməsi haqqında biliklərə malik olma bacarığına;
- Azərbaycan dilinin tarixi, onun inkişafı və zənginləşdirilməsi yollarını bilməlidir. Tarixin müəyyən dövrlərində dilimizin düşmən qüvvələrinin təzyiqinə, təcavüzünə məruz qalmasını, lakin xalqımızın milli birliyi, milli qüruru sayəsibdə onun qorunmasına müvəffəq olmasını və bu işdə görkəmli sərkərdələrin, dövlət xadimlərinin xidmətlərini araşdırmaq; Azərbaycan dilibdə təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarını aşılamaq; Azərbaycan dilini yaxşı bilməli, onu qorumalı və inkişaf etdirmək; Azərbaycan dilinin özünəməxsusluğunu qorumağı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağı, onlarla ünsiyyət qurmaq; Azərbaycan dilinin təmizliyi uğrunda mübarizə aparmaq; dili yad ünsürlərdən qorumaq və onu yaşatmaq bacarığına;
- Xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqlara malik olmalıdır. Beynəlxalq arenaya çıxaraq öz xalqının milli-mənəvi dəyərlərini, qazandığı nailiyyətləri başqalarına çatdırmaq; xarici dilin qrammatik, leksik, semantik strukturlarını analiz etmək; xarici dildə fikir və təcrübə mübadiləsi aparmaq kimi vərdişlərə yiyələnmək; xarici dil bacarığına malik olmaqla, komandada işləmək, şəxslərarası ünsiyyət səriştəliyini formalaşdırmaq, liderlik bacarığına nail olmaq və s. işgüzar fəaliyyət ilə öyrənmə prosesinin inteqrasiyası zamanı əldə olunan bacarıqlara malik olmaq; xarici dilin kommunikativlik, sistemlilik, funksionallıq kimi keyfiyyətlərinə yiyələnmək bacarığına yiyələnməlidir.

### 3. Təhsil Proqramının strukturu

3.1. Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarət olmalıdır. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

*Cədvəl 1*

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | |
| 1 | **Azərbaycanın tarixi**<br>*Bu fənnin tədrisi zamanı Azərbaycan tarixinə dair bilikləri ümumiləşdirərək tarixi məkan, tarixi zaman, dövlət, şəxsiyyət, iqtisadiyyat və mədəniyyət məzmun xətləri üzrə qruplaşdırıb gənc nəslə çatdırmaq, tələbə-gənclərə Vətənimizin tarixi keçmişi haqqında dərin biliklər vermək, onlarda tarixi təfəkkürü formalaşdırmaq, cəmiyyətdə baş verən hadisələri obyektiv qiymətləndirmək bacarığı aşılamaq, dövlətçilik məfkurəsinin, keçmişə hörmət, gələcəyə inam hisslərinin formalaşması, gənclərdə vətənpərvərlik ruhunun tərbiyə edilməsi kimi bilik və bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn cərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 4 |
| 3 | **Xarici dildəişgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 15 |
| | **Seçmə fənlər** | |
| 4 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları<br>Məntiq<br>Etika və estetika<br>Multikulturalizmə giriş | 3 |
| 5 | Kimyada informasiya texnologiyalarının tətbiqi<br>İnformasiyanın idarə edilməsi və məlumatlar bazasının yaradılması<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |
| **Cəmi:** | | **30** |
| | **İxtisas fənləri** | |
| 6 | **Ali riyaziyyat**<br>*Bu fənn çərçivəsində riyazi biliklərin formalaşması və kimyaya tətbiqinə diqqət yetirilməlidir.* | 14 |

| | | |
|---|---|---|
| 7 | **Fizika**<br>*Bu fənn çərçivəsində kimyada fizikanın roluna diqqət yetirilməlidir.* | 12 |
| 8 | **Ümumi kimya**<br>*Bu fənn çərçivəsində atom-molekul təlimi, atom orbitalları, kvant ədədləri, elementlərin dövri sisteminə diqqət yetirilməlidir.* | 5 |
| 9 | **Qeyri-üzvi kimya**<br>*Bu fənn çərçivəsində elementlərin və onların müxtəlif birləşmələrinin təbiətdə yayılması, müxtəlif çevrilmələri, fiziki və kimyəvi xassələri, tətbiq sahələrinə diqqət yetirilməlidir.* | 12 |
| 10 | **Analitik kimya**<br>*Bu fənn çərçivəsində maddələrin vəsfi təyini və miqadri analizini müasir analiz metodları ilə araşdırılma yollarına diqqət yetirilməlidir.* | 12 |
| 11 | **Üzvi kimya**<br>*Bu fənn çərçivəsində üzvi maddələrin tərkibi və quruluşunun müasir analiz metodları ilə təyini yollarına, üzvi maddələrin fiziki xassələrini , sintez üsullarını, kimyəvi reaksiyalarının qanunauyğunluqlarını və tətbiq sahələri imkanlarına diqqət yetirilməlidir.* | 12 |
| 12 | **Fiziki kimya**<br>*Bu fənn çərçivəsində kimyəvi proseslərin baş vermə səbəblərini və mexanizmini başa düşmək üçün termodinamiki və kinetiki qanun və qanunauyğunluqlara diqqət yetirilməlidir.* | 12 |
| 13 | **Yüksək molekullu birləşmələr (YMB) kimyası**<br>*Bu fənn çərçivəsində üzvi və qeyri-üzvi polimerlərin təbiətdə yayılması, yüksəkmolekullu birləşmələrin sintez üsulları, onların kimyəvi çevrilmələri və tətbiq sahələrinə diqqət yetirilməlidir.* | 6 |
| 14 | **Mülki müdafiə**<br>*Bu fənn çərçivəsində fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarının təşkili və həyata keçirilməsi haqqında biliyə diqqət yetirilməlidir.* | 3 |
| 15 | **Kristallokimya**<br>*Bu fənn çərçivəsində molekulların, kristalların və quruluşun simmetiriyasına diqqət yetirilməlidir.* | 4 |
| 16 | **Neft kimyası və neft kimyəvi sintez**<br>*Bu fənn çərçivəsində neft emalı, neft karbohidrogenlərinin termiki və katalitik kimyəvi çevrilmələri proseslərinədiqqət yetirilməlidir.* | 6 |
| 17 | **Kimya texnologiyası**<br>*Bu fənn çərçivəsində qeyri-üzvi və üzvi maddələrin sənaye miqyasında alınma üsullarını və texnoloji sxemlərinədiqqət yetirilməlidir.* | 6 |
| 18 | **Fiziki tədqiqat metodları**<br>*Bu fənn çərçivəsində fiziki metodların əsasları, təsnifatının əsas prinsipləri, onların ümumi xarakteristikaları, həssaslığı, imkanları, məhdidiyyəti və s. ilə əlaqədar nəzəri və praktiki biliklərə diqqət yetirilməlidir.* | 6 |
| 19 | **Kolloid kimya**<br>*Bu fənn çərçivəsində kolloid sistemlər, onların fiziki və kimyəvi xassələrinə diqqət yetirilməlidir.* | 6 |
| 20 | **İnformatika**<br>*Bu fənn çərçivəsində müxtəlif riyazi məsələlərin həlli, proqram təminatı, kompyuter şəbəkələri və verilənlər bazasının idarəetmə sistemləri, informasiyanın qorunması və arxivləşdirilməsi üsulları, internet haqqında* | 4 |

| | | |
|---|---|---|
| | *biliklərə diqqət yetirilməlidir* | |
| Cəmi: | | 120 |
| Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər | | 60 |
| Təcrübə və buraxılış işi | | |
| | Təcrübə | 21 |
| | Buraxılış işi | 9 |
| Cəmi: | | 30 |
| Ümumi cəm: | | 240 |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.)açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlüyanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədrisvə öyrənmə metodlarınaaşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinəyetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunuqiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasınayardım etməlidir.

5.2. Qiymətləndirməüsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirməüsullarıinnovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirməüsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirməüsullarından istifadə edilməlidir. Bu üsullartələbəyönümlüyanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionunqiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizmproblemini anlamaq öyrədilir. Onlar intellektual əməyinəqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanmasıali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir.Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- müvafiq təchizata malik mühazirə otaqlarına;
- kimyanın müxtəlif sahələri üzrə təlimlərin və praktiki dərslərin keçirilməsi üçün avadanlıq və reaktivlərlə təchiz edilmiş tədris və tədqiqat laboratoriyalarına;
- müasir proqram təminatı ilə təchiz edilmiş və internet şəbəkəsinə çıxışı olan kompüter otaqlarına;
- məşğələ və qrup işinin keçirilməsi üçün otaqlara;
- elektron kitabaxanalara, elmi məlumat bazalarına, ənənəvi kitabxana otaqlarına.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

8.3. Təcrübədən öncə ali təhsil müəssisəsivə təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasınauyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.4. Təcrübənin qiymətləndirilməsi tələbənin keçdiyi təcrübə haqqında hazırladığı hesabatın komissiya qarşısında təqdimatı əsasında aparılır. Komissiya tələbənin təhsil aldığı fakültənin uyğun kafedralarının mütəxəssislərinin iştirakı ilə formalaşır.

## 9. Buraxılış işi

9.1. Təhsil Proqramı buraxılış işi ilə tamamlanır.

9.2. Buraxılış işi tələbənin müstəqil elmi-metodik araşdırması olmalıdır, məzmunun əsasını yeni fakt və ya bəlli müddəaların başqa elmi aspektdən ümumiləşdirilməsi, irəli sürülmüş müddəaların praktiki əhəmiyyətini sübuta yetirməlidir. Buraxılış işi fakültənin aparıcı professor-müəllim heyəti və məzunların potensial işəgötürən müəssisələrindən dəvət olunmuş aparıcı mütəxəssislərin iştirakı ilə təşkil olunmuş müvafiq komissiya qarşısında müdafiə olunmalıdır.

## 10. Məşğulluq və ömürboyu təhsil

10.1. Bu proqramın məzunları ixtisas dərəcəsinə uyğun özəl təşkilatlarda, şirkətlərdə, dövlət müəssisələrində, dərin kimya biliklərinin tələb olunduğu elmi-tədqiqat institutlarında, laboratoriyalarında və mərkəzlərində, universitetlərdə, eləcə də innovasiya və digər ümumsahəvi kompetensiyaların tələb olunduğu sahələrdə işləyə bilərlər.

10.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

*10.3.* Bakalavr proqramının məzunları təhsillərini Kimya, Kimyamüəllimliyi və digər müvafiq ixtisaslar üzrə Magistr proqramlarındadavam etdirə bilərlər.

10.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

__________ Yaqub Piriyev

"27" 07 2020-ci il

Təbiət ixtisasları qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

__________ Hüseyn Məmmədov

"27" iyul 2020-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyi • BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş. •
ARAYIŞ ÜÇÜN

**Əlavə 1**

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

| **Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN1- Azərbaycan tarixini mükkəməl bilir, Azərbaycan xalqının həyatında baş vermiş mühüm hadisələr haqqında sistemli şəkildə aydın, yığcam və anlaşılan biliklərə yiyələndiyini, vətənpərvərlik, milli qürur, öz dövlətinə, xalqına və millətinə məhəbbət hislərinə malik olduğunu nümayiş etdirir. Azərbaycan dövlətinin maraqlarını qorumaq qabiliyyətinə malik olduğunu nümayiş etdirir. |
